# Ümumtəhsil məktəblərində təhsilalanın nailiyyət səviyyəsinin qiymətləndirilməsi üçün yeni sinifdaxili qiymətləndirmə sistemi barədə

**Nəbi Mahmudov**
*Bakı şəhəri 83 nömrəli məktəb-liseyin direktoru, riyaziyyat üzrə fəlsəfə doktoru*
**E-mail:** nabimm@mail.ru

**Rəyçilər:** t.ü.e.d., prof. M.Ö. Yusifov,
ped.ü.e.d., prof. S.S. Həmidov

**Açar sözlər:** şkala, sinifdaxili, qiymətətləndirmə, sistem, dərs, təlim
**Ключевые слова:** шкала, внутриклассное, система, оценивание, урок, обучение
**Key words:** scale, class-based, assessment, system, lesson, training

Sivilizasiyanın inkişafının müəyyən mərhələsində uşaqların kollektiv şəkildə, birgə təlimə cəlb olunması məqsədəuyğun hesab edilmişdir. Uşaqların kollektiv təlim/tədris prosesinə cəlb edilməsinin – sinif-dərs sistemi üzrə təşkilinin əsasları çex pedaqoqu Y.A. Komenski (1592-1670) tərəfindən "Böyük didaktika" əsərində verilmişdir. Sinif-dərs sistemi əsasən (1) sinifdə sabit tərkibli şagird qrupunun olması, (2) hər bir təhsil səviyyəsi və sinif üzrə təlim nəticələrinin ciddi təyin olunması, (3) dəqiq təyin edilmiş dərs məşğələləri cədvəlinin olması, (4) şagirdlərlə işləməyin fərdi və kollektiv formaları, (5) müəllimin (bələdçi) və şagirdin (tədqiqatçı) rolu, (6) şagirdin fəaliyyətinin izlənilməsi və nailiyyət səviyyəsinin qiymətləndirilməsi ilə xarakterizə edilir. Şagirdlər sinif-dərs sistemində (1) təhsil səviyyələri üzrə müvafiq məzmunu öyrənir, (2) müəllim tərəfindən verilmiş tapşırıqları yerinə yetirir, (3) müəyyən bölmələr (tədris vahidləri) üzrə kiçik və böyük summativ qiymətləndirmə tapşırıqlarını icra edir və (4) sonda onların nəticələri qiymətləndirilir.

Y.A. Komenski zamanından indiyədək təlim prosesinin təşkili forması demək olar ki, dəyişməz qalmış, lakin elmin və texnologiyanın inkişafı ilə bağlı onun məzmununda müəyyən dəyişiklər baş vermiş, təlim strategiyaları təkmilləşmiş, müəllim-şagird münasibətlərinin yeni formaları yaranmışdır. Şagirdlərlə işləməyin fərdi formalarından kollektiv formalarına – sinif-dərs sisteminə keçid, sinifdə eyni zamanda bir neçə nəfərin təhsil alması onların fərqləndirilməsini gündəmə gətirmiş, bu isə öz növbəsində qiymətləndirmənin aparılmasını zəruri etmişdir. Beləliklə, qiymətləndirmə sisteminin yaradılmasına başlanmış, müxtəlif vaxtlarda müxtəlif ölkələrdə təhsilalanların fəaliyyətinin və nailiyyət səviyyəsinin qiymətləndirilməsi üçün demək olar ki, mahiyyətcə bir-birindən fərqlənməyən sözlə, rəqəm və hərflərlə ifadə edilən müxtəlif qiymətləndirmə sistemləri (şkalaları) işlənib hazırlanmışdır.

Aparılan tədqiqatlar (araşdırmalar) qiymətləndirmədən ilk dəfə VI əsrin sonlarında çində istifadə edildiyini söyləməyə imkan verir. Çində əsasən dövlət məmurlarının seçimini həyata keçirmək üçün tətbiq olunan qiymətləndirmələrin əvvəllər şifahi, sonralar isə yazılı şəklindən istifadə edilmişdir. [6]

Təhsilalanın biliyinin və davranışının balla qiymətləndirilməsi öz başlanğıcını XVI-XVII əsrlərdə fəaliyyət göstərmiş yezuit məktəblərindən götürür. Təhsilalanın biliyinin balla qiymətləndirilməsi sisteminin əsası Almaniyada qoyulmuş və ilk olaraq üç balla qiymətləndirmədən istifadə olunmuşdur. Bu qiymətləndirmə sistemində təhsilalanlar səviyyələrinə görə "əla", "orta" və "ən aşağı" kimi üç dərəcəyə ayrılmış və onların hər biri

rəqəmlə ifadə olunmuşdu. Bu zaman "əla (çox yaxşı)" dərəcəsinə layiq görülən təhsilalanların bilik səviyyəsi 1 balla, "orta" dərəcəlilərin bilik səviyyəsi 2 balla və "ən aşağı" dərəcəyə aid olanların bilik səviyyəsi isə 3 balla qiymətləndirilirdi.

Müəyyən müddət keçdikdən sonra "əla" və "ən aşağı" səviyyəli təhsilalanlarla müqayisədə orta səviyyəlilərin sayının artması onların bilik səviyyəsinin dərəcələrə ayrılması (müəyyən edilməsi) üçün çoxsəviyyəli qiymətləndirmə sisteminin yaranmasını zərurətə çevirdi. Bu dərəcələrə ortadan yuxarı və ortadan aşağı səviyyələr əlavə olundu və beləliklə, Almaniyada (1, 2, 3, 4, 5) beşballı qiymətləndirmə şkalasına keçildi. Hazırda bu ölkədə 6 ballıq qiymətləndirmə sistemindən istifadə edilir. Bu qiymətləndirmə sistemində 1 – biliyin (nailiyyətin) ən yüksək, 6 isə ən aşağı səviyyəsini bildirir. Göstərilənlərlə yanaşı, hazırda, Almaniyanın ümumi təhsil məktəblərinin 1-ci və 2-ci siniflərində təhsilalanların qiymətləndirilməsi 6 ballıq şkala ilə deyil, fəaliyyətlərinin izlənilməsi (bacarıq səviyyəsinin sözlə qiymətləndirilməsi) şəklində həyata keçirilir və tədris ilinin sonunda onların nəticələri barədə müəllim tərəfindən məktəb rəhbərliyinə və valideynlərə təqdim olunmaq üçün yazılı hesabat hazırlanır.

Biz məktəb təcrübəsinə əsaslanaraq ibtidai siniflərdə təhsilalan kiçikyaşlı uşaqların istər fəaliyyət, istərsə də nailiyyət səviyyəsinin yüksək balla qiymətləndirilməsinin onları daha yaxşı fəaliyyətə təhrik etdiyini, aşağı balla qiymətləndirilmənin onlarda stress (əsəbi gərginlik) yaratdığını nəzərə almağı və ən azı 1-2-ci siniflərdə onların nailiyyət səviyyəsinin rəqəmlə (balla, şkala əsasında) deyil, sözlə (təsviri) qiymətləndirilməsini, yarımil və illik nəticələri barədə sözlə yazılı hesabatların hazırlanmasını, məktəb rəhbərliyinə və valideynlərə təqdim olunmasını məqsədəuyğun hesab edirik.

Rusiyanın təhsil tarixində ilk olaraq Avropada, xüsusilə Almaniyada tətbiq olunan sözlə qiymətləndirmə sistemindən istifadə olunub. 1737-ci ildə Kiyev Din Akademiyası tələbələrinin biliyinin qiymətləndirilməsində ilk dəfə üç dərəcəli (əla, orta və aşağı səviyyəli) sözlə qiymətləndirmə sistemi tətbiq edilmiş və aparılan qiymətləndirmənin nəticələrinə əsasən tələbələr üç dərəcə (səviyyə)yə ayrılmışdır:

- *əla dərəcə (səviyyə)* – çox yaxşı müvəffəqiyyət əldə etmiş təhsilalanın təlim alması (öyrənməsi) kifayət qədər yaxşıdır, ümidvericidir, onlar ədalətli, etibarlı, mehriban, vicdanlı, tərifə layiqdir;
- *orta dərəcə (səviyyə)* – orta müvəffəqiyyətə nail olmuş təhsilalanın təlim alması (öyrənməsi) orta, uğurları babat, lakin pis deyil;
- *ortadan aşağı dərəcə (səviyyə)* – ortadan aşağı müvəffəqiyyət əldə etmiş təhsilalanın təlim alması (öyrənməsi) zəif, tənbəl, qorxaq, az ümidverici sözləri ilə xarakterizə edilirdi.

Qeyd edək ki, Rusiyada müxtəlif vaxtlarda istifadə olunmuş 3, 5, 8, 10 və 12 ballıq qiymətləndirmə sistemlərindən yalnız 5 ballıq qiymətləndirmə sistemi tətbiq edilmək statusu qazanmış və onun istifadə olunması ilə bağlı 1837-ci ildə Rusiyanın Xalq Maarif Nazirliyi tərəfindən rəsmi qərar qəbul edilmişdi: 1 – çox pis, 2 – pis, 3 – kafi, 4 – yaxşı, 5 – əla. [7]

Rusiya imperiyasının hərbi-tədris müəssisələrində isə kadetlərin tədris müvəffəqiyyətlərinin qiymətləndirilməsi üçün 12 ballıq şkaladan istifadə olunmuşdur. [7] Aşağıda bu qiymətləndirmə sisteminin həm 5 ballıq şkala ilə, həm də sözlə təsviri verilir:

| 12 ballıq sistemdə | 5 ballıq sistemdə | Biliyin sözlə təsviri (təhsilalan) |
|---|---|---|
| 12 | 5 | Keçilmiş materialla bağlı çox yaxşı (əla) bilik nümayiş etdirir, suallara aydın, dəqiq cavab verir, öz fikrini məntiqi olaraq ifadə edir, mübahisə zamanı öz nöqteyi-nəzərində qalır və sərbəst şəkildə dialoq aparır. |

| | | |
|---|---|---|
| | | |
| 11, 10 | 4 | Keçilmiş materialla bağlı dərin biliyə malik olduğunu göstərir, suallara inamla cavab verir, düzgün nəticələr çıxarır, aydın və əlaqəli danışır. |
| 9, 8, 7 | 3 | Keçilmiş materialla bağlı mövzunu yığcam mənimsədiyini göstərir, amma fikrini aydın ifadə edə bilmir, yönəldici sualların köməyi ilə cavab verir, müəllimin hər hansı müdaxiləsindən özünü itirir. |
| 6, 5, 4 | 2 | Keçilmiş materialla bağlı mövzuları əsasən anladığını göstərir, cavab verərkən buraxdığı fikirləri müəllimin köməyi ilə asanlıqla xatırlayır, amma aydın cavab vermir, müxtəlif anlayışları qarışdırır və ya danışdıqlarını əzbər olaraq yenidən söyləyir. |
| 3, 2, 1 | 1 | Keçilmiş materialla bağlı demək olar ki, heç nə bilmir, onu “anlaşılmaz şəkildə və səhv anlayır” (belə balla ikinci ilə qalır). |

Rusiyada sonrakı illərdə də təhsilalanın biliyinin balla qiymətləndirilməsi sistemi ilə bağlı müzakirələr aparılmışdır. XX əsrin əvvəllərində, təhsil sahəsində aparılan islahatlar çərçivəsində 1916-cı ildə Rusiya Xalq Maarif Nazirliyinin təklifi ilə rəqəmlə (balla) qiymətləndirmənin sözlə, “uşaqların uğursuzluğu barədə valideynlərin məlumatlandırılması” ilə əvəz edilməsi qəbul olundu. Amma 1917-ci ilin Oktyabr inqilabından sonra yaranmış RSFSR-də “çar dövründən qalma”lardan – sözlə qiymətləndirmədən də imtina edildi, lakin 1935-ci ildə yenidən beş ballıq sözlə (“qeyri-qənaətbəxş”, “qənaətbəxş”, yaxşı”, “əla”) qiymətləndirmə sisteminə qayıdıldı. 1944-cü ilin yanvarından isə sözlə beş ballıq qiymətləndirmə sisteminə 1-dən 5-dək rəqəmlə ifadəolunma da əlavə edildi. Bu qiymətləndirmə şkalasından SSRİ-nin süqutuna, onun hüquqi varisi olan Rusiyada isə 2009-cu ilədək istifadə olundu. 2009-2010-cu dərs ilindən Rusiyanın da ümumtəhsil məktəblərində 10 ballıq qiymətləndirmə sisteminin tətbiqinə keçildi.

Keçən əsrin 80-ci illərində SSRİ-də aparılan təhsil islahatları çərçivəsində beş ballıq qiymətləndirmə sisteminin çatışmayan tərəfləri göstərilməklə, ondan imtina edilməsi və yeni qiymətləndirmə sisteminin (şkalasının) hazırlanması ilə bağlı müəyyən işlərin həyata keçirilməsinə başlandı. Lakin SSRİ-nin dağılması və yeni müstəqil dövlətlərin yaranması ilə əlaqədar olaraq bu layihənin hazırlanması və tətbiq edilməsi baş tutmadı. Yeni müstəqillik əldə etmiş ölkələr özlərinin milli təhsil sistemlərini yaratmaqla, təhsilalanın qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə sistemləri (şkalaları) qəbul etdilər. Hazırda Belarus, Gürcüstan, Latviya və Litva Respublikalarının ümumtəhsil müəssisələrində 10, Moldova və Ukraynada 12, Azərbaycanda isə rəqəm və uyğun sözlə müəyyən edilmiş 5 ballıq qiymətləndirmə sistemi tətbiq olunur.

Məsələn, 1993-cü ildən dörd səviyyəli – 4 ballıq (“5”, “4”, “3”, “2”), 2000-ci ildən 12 ballıq qiymətləndirmə sisteminə keçilmiş Ukraynada 12 ballıq şkala üzrə ballar aşağıdakı kimi təsvir edilir: [6]

| Qiymətləndirmə şkalası | Qiymətlər | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 4 ballıq | 2 | | | 3 | | | 4 | | | 5 | | |
| | $2^-$ | 2 | $2^+$ | $3^-$ | 3 | $3^+$ | $4^-$ | 4 | $4^+$ | $5^-$ | 5 | $5^+$ |
| 12 ballıq | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| Qiymətləndirmə | I - ilkin | | | II - orta | | | III - qənaətbəxş | | | IV - yüksək səviyyə | | |

| səviyyələri | səviyyə | səviyyə | səviyyə | |
|---|---|---|---|---|
| Qiymətləndirmənin təsviri | İlkin təsəvvürə malikdir. | Əsas materialı söyləyir, nümunə əsasında tapşırığı icra edir. | Vacib anlayışları, hadisələri, onlar arasındakı əlaqəni bilir, əsas qanunauyğunluqları izah etməyi bacarır, bilikdən standart situasiyalarda istifadə edir, lakin əqli mühakimələrdə səhvlərə yol verir. | Daha dərin, səbatlı, sistemli biliyə malikdir. Bilikdən yaradıcı şəkildə tapşırıqların həllində istifadə edir, müxtəlif situasiyaları qiymətləndirir, hadisə və faktları aydınlaşdırır, şəxsi mövqeyində qalır. |

Qeyd edək ki, Ukraynada qəbul edilmiş 4 səviyyəli qiymətləndirmə sistemində hər bir qiymət özünün aşağı ($^-$) və yuxarı ($^+$) səviyyəsi ilə verilir və yekun qiymətləri IV (yüksək) səviyyə (10, 11 və ya 12 bal) olan orta məktəb məzunları medalla təltif olunurlar.

Latviyanın ümumtəhsil məktəblərində isə 10 ballıq qiymətləndirmə sistemi tətbiq olunur və ballar aşağıdakı kimi təsvir edilir:

| Qiymət | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Qiymə-tin təsviri | əla (çox üstün) | əla | çox yaxşı | yaxşı | demək olar ki yaxşı | orta | demək olar ki orta | zəif | çox zəif | çox, çox zəif |

Bu və buna oxşar çoxballıq qiymətləndirmə sistemindən istifadə olunması şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsində bütün məqamları maksimum nəzərə almağa kömək edir. Məsələn, bir-birindən müəyyən qədər fərqlənən iki təhsilalanın nailiyyət səviyyəsinin “orta” (“kafi”) ilə qiymətləndirilməsi onlardan birinin (nisbətən üstün cavab verənin, tapşırığı nisbətən düzgün yerinə yetirənin) təhsilə münasibətində pis meyillər yarada bildiyi üçün onun “demək olar ki yaxşı” ilə qiymətləndirilməsi daha münasibdir. Çünki, belə qiymətləndirmə təhsilalanı səylərini artırmağa, daha yüksək nailiyyətlər əldə etməyə səfərbər edir (ruhlandırır). Lakin 5 ballıq qiymətləndirmə sistemi buna imkan vermir və onunla müqayisədə 10 (həmçinin, digər çox) ballıq qiymətləndirmə sistemindən istifadə edilməsinin təhsilalanlarda təlimə daha çox maraq hissi yarada biləcəyini ehtimal edirik.

Bu baxımdan hazırda müasir dünyanın bir çox ölkələrində beş ballıq qiymətləndirmə sistemi ilə yanaşı, şagirdlərin real bilik və bacarıq səviyyəsini daha çox dəqiq və dolğun əks etdirən, onların hüququnu daha çox qoruyan çoxballıq qiymətləndirmə sistemindən (şkalasından) istifadə olunması gündəmdə dayanır. Məsələn, ABŞ-da dövlətin vahid qiymətləndirmə sistemi yoxdur və bu ölkənin müxtəlif ştatlarında 5 – 100 ballıq (müxtəlifballı) qiymətləndirmə sistemlərindən istifadə olunur. Bununla belə, ABŞ-da təhsilalanların hər bir fənn üzrə yekun nəticəsi (topladığı ballar) sonda onların təhsil sənədlərində ölkə üzrə qəbul olunmuş və A, B, C, D, F hərfləri ilə işarə edilmiş, müvafiq balla təsvir olunan vahid qiymətləndirmə şkalası əsasında əksini tapır: A (əla), B (yaxşı), C (qənaətbəxş), D (aşağı), F

(uğursuzluq-ən aşağı). Hərflərlə qiymətləndirmələr zamanı F-dən fərqli olaraq hər bir qiymətin "+" və "–" işarələri ilə müvafiq olaraq yuxarı və aşağı (məsələn, $A^+$, $A^-$) sərhədləri də müəyyən olunur. Bu isə müəllimə təhsilalanın həm bilik (nailiyyət), həm də bacarıq səviyyəsini daha dəqiq müəyyən etməyə (qiymətləndirməyə) imkan verir: məsələn, "yaxşıdır, amma əla üçün kifayət deyil" və s.

Aşağıda ABŞ-da istifadə olunan qiymətləndirmə sistemi (şkalası) hərflər və uyğun ədədi qiymətlərlə verilir:

| Şkala | 13 | 12 | 11 | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Qiymət | 4.00 | 4.00 | 3.67 | 3.33 | 3.00 | 2.67 | 2.33 | 2.00 | 1.67 | 1.33 | | 0.67 | 0.0 |
| Faizlə ifadəsi | 100% | 100% | | | 75% | | | 50% | | | 25% | | |
| Hərflə ifadəsi | $A^+$ | A | $A^-$ | $B^+$ | B | $B^-$ | $C^+$ | C | $C^-$ | $D^+$ | D | $D^-$ | F |

Cədvəldən görünür ki, $A^+$ və A eyni qiymət "daşıyır". $A^+$ qiymətindən istifadə edilməsi ABŞ təhsilində yenilik hesab olunur. Lakin ABŞ ali məktəblərinin çox az hissəsi $A^+$-u 4.0 kimi deyil, 4.33 və ya 4.5, bəzi institutlar isə $A^-$ ilə $B^+$ qiymətlərini eyni (bu halda $A^-= B^+=$ 3.5 kimi) qəbul edirlər. Bu ədədi qiymətlər ABŞ-ın təhsil müəssisələrində (ali məktəb və kolleclərində) istifadə olunan *təhsilalanın keyfiyyət indeksinin* hesablanmasında nəzərə alınır.

*Keyfiyyət indeksi* hər bir yarımil, semestr və tədris ili üzrə müəyyən olunur. Təhsilalanın yarımil (semestr) ərzində aldığı bütün qiymətlərin ədədi ortası onun həmin yarımil (semestr) üzrə *keyfiyyət indeksi* olaraq götürülür. Təhsilalanın keyfiyyət indeksi hər tədris ilinin sonunda, həmçinin o, təhsil müəssisəsini (məktəb, kollec və ya universiteti) bitirdikdə hesablanılır. Bəzi kolleclərdə təhsilalanın ümumi keyfiyyət indeksi ilə yanaşı, onun peşə istiqamətinə aid fənlər üzrə də keyfiyyət indeksi təyin olunur. Keyfiyyət indeksindən şagirdlərin müvəffəqiyyətinin müəyyən olunmasında istifadə edilir və onun 2.0-dan (50%-dən) az olmaması nəzərdə tutulur. Bununla belə, *keyfiyyət indeksi 1.67 – 2.0 olan şagird müvəffəqiyyətli şagird hesab edilir.*

Keyfiyyət indeksi 2.0-dan aşağı olan təhsilalan müəssisə rəhbərliyi tərəfindən nəzarət altına alınır və ona sınaq müddəti verilir. O, bu sınaq müddətində səviyyəsini yüksəltmək, çatışmazlıqlarını aradan qaldırmaq məqsədi ilə növbəti rübdə dərsdənkənar xüsusi fakültativ məşğələlərə cəlb olunur. Bu məşğələlərin nəticəsi olaraq keyfiyyət indeksini yaxşılaşdırmayan təhsilalan sınaq qrupunda qalır və ya təhsildən uzaqlaşdırılma riskli qruplara daxil edilir.

ABŞ-da təhsilalanın düzgün cavablarının faizlə ifadəsindən asılı olaraq, bal kriteriyalar üzrə verilir: nəticələri 90%–100% olanlar A, 80%–89% olanlar B, 70%–79% olanlar C, 65%–69% olanlar D, 64% və aşağı olanlar isə F ilə qiymətləndirilirlər [7, 3].

Kanada qiymətləndirmə faizlə həyata keçirilir. Məsələn, 50-60% - qənaətbəxş, 65-75% - yaxşı, 80-90% - əlaya yaxın, 100% isə əla nəticə olub, ancaq riyaziyyat və digər dəqiq elmlər üzrə verilir. Sonrakı sinfə keçid üçün bütün fənlər üzrə orta bal çıxarılır və bu, 50%-dən yuxarı olmalıdır. Orta balı 80%-dən yuxarı olanlar imtahandan azad edilir və tərifnamə (Honorable Rool) alırlar.

Fransada 20 ballıq qiymətləndirmə sistemi tətbiq edilir. Lakin ölkə üzrə ən yüksək qiymət 18 bal hesab olunur. Bu ölkədə 20 balın ancaq Cənab Allah, 19 balın isə cənab müəllim

tərəfindən alına biləcəyi vurğulanır. Qiyməti 10 bal və ondan yuxarı olan təhsilalanın nailiyyət səviyyəsi müsbət hesab edilir. Fransızların yaxşı oxuyanlarının əksər hissəsi 12-14 bal alır. Bu təhsil sisteminin ali məqsədi – hədəfi təhsilalanların əksər hissəsinin 14-16 bal almasına nail olmaqdan ibarətdir.

Belçikada müxtəlif ballı qiymətləndirmə sistemlərindən istifadə olunur. Ümumtəhsil məktəblərində 10 ballıq qiymətləndirmə sistemi tətbiq edilir. Burada 10 bal ən yüksək, 1 bal ən aşağı, 5 və ya 4 bal keçid balı hesab olunur. Eyni zamanda bu ölkədə istifadə edilən 20 ballıq şkalada 10 – 20 bal müsbət qiymətlər, 10 bal beynəlxalq "keçid" balı hesab edilir.

Argentinanın ümumtəhsil məktəblərində 10 ballıq qiymətləndirmə sistemi tətbiq edilir. 10 bal ən yüksək nəticə hesab olunur. Keçilən dərslər üzrə təhsilalanın yoxlama, praktik və nəzarətli işlərinin qiymətlərinin ədədi ortası çıxarılır. Sonra bu qiymətlər əsasında təhsilalanın üç semestr (rüb) üzrə orta qiymətinə görə onun illik qiyməti müəyyən edilir. Ədədi orta qiymət 7 və ya ondan böyük olduqda, təhsilalanın keçilən kursu müvəffəqiyyətlə bitirməsi qəbul olunur. Orta qiyməti 7-dən az olan təhsilalan isə tədris ili ərzində keçilmiş bütün material üzrə imtahan verir.

İsrailin orta məktəblərində 10 – 0 və ya 100 – 0 ballıq qiymətləndirmə sistemindən istifadə olunur. Ən yüksək nəticə 10 və ya 100 bal hesab olunur.

Polşada 6 ballıq qiymətləndirmə sistemindən istifadə edilir və bu ölkənin hər bir məktəbi özünün "daxili" şkalasını tətbiq edə bilər, lakin məktəbi bitirənlərin sənədlərində yekun qiymətlər xarici qiymətləndirmə sistemində qəbul olunmuş qiymətlərlə uyğunlaşdırılaraq yazılır. [7]

Böyük Britaniyada A*-dan U-ya kimi hərflərlə işarə edilmiş qiymətləndirmə sistemi tətbiq olunur. Burada, A* ən yüksək qiymət olub nadir hallarda verilir, A – əla, B – çox yaxşı, C – yaxşı, D – tam uğurlu deyil, E – zəif, F – çox zəif, N – qiymətləndirilmir, U – uğursuzluq. Formal olaraq U imtahan vermədiyini göstərir. Praktikada E-dən aşağı qiymətlər "qeyr-kafi" ilə eynigüclü hesab olunur. [7, s. 3]

Hollandiyanın ümumtəhsil məktəblərində 10 ballıq qiymətləndirmə şkalası tətbiq edilir:

| şkala | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Qiymət (hərflə) | $A^+$ | A | $A^-$ | $B^+$ | B | $B^-$ | $C^+$ | C | $C^-$ | D |
| Qiymət (sözlə) | əla | yaxşıdan yuxarı | yaxşı | kafidən yuxarı | kafi | demək olar ki kafi | qeyri-kafi | adi | pis | çox pis |

Göründüyü kimi, təhsilalanın topladığı bal 1 – 4 olduqda, onun nailiyyət səviyyəsi "ən yüksək halda" qeyri-kafi qəbul olunur. Qiymətləndirmə səviyyələrinin dəqiqliyini artırmaq üçün 1 (D)dən fərqli hər bir qiymətin aşağı və yuxarı sərhəddindən istifadə edilir.

Göstərilənlərlə yanaşı qeyd edək ki, XIX əsrin əvvəllərində Rusiya imperiyası tərəfindən ilhaq edilmiş Azərbaycanda fəaliyyət göstərən məktəblərdə Rusiyada həyata keçirilən qiymətləndirmə sistemindən istifadə edilmişdir. SSRİ-nin süqutu ilə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası özünün milli mənəvi dəyərlərə əsaslanan təhsil sistemini qurmaq üçün 1999-cu ildən təhsil sahəsində islahat proqramını həyata keçirir. Bu proqram çərçivəsində qiymətləndirmə sisteminin təkmilləşdirilməsi istiqamətində müəyyən addımlar atılmış, 9 (1, 2, 3, 4, 5, 6, 7, 8, 9) ballıq qiymətləndirmə sisteminin elmi-nəzəri əsasları hazırlanmış və təhsil nazirinin əmri ilə 1998-1999-cu tədris ilində Respublikanın İsmayıllı və

Bakı şəhərinin Nərimanov rayonlarının ümumtəhsil məktəblərində eksperiment qaydasında tətbiqinə başlanmış, sonrakı illərdə Gəncə şəhərinin, Şəki, Quba və Lənkəran rayonlarının da ümumtəhsil məktəblərini əhatə etmişdir. [8, s.3] Aşağıda bu qiymətləndirmə sistemi (şkalası) və onun 5 ballıq şkala ilə uyğunluq cədvəli verilir:

| Qiymət | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Qiymətin sözlə təsviri | yüksək | yaxşı | | Orta | zəif | | pis | | |
| Qiymətin 5 ballıq şkala ilə təsviri | 5 | 4 | | 3 | 2 | | 1 | | |

Lakin bir neçə il eksperiment qaydasında tətbiq olunan bu qiymətləndirmə sistemi "özünü doğrultmadığı" üçün onun ölkə səviyyəsində tətbiq edilməsi məqsədəuyğun hesab olunmadı. Lakin çoxballıq qiymətləndirmə sistemi olaraq bu 9 ballıq qiymətləndirmə sisteminin dünya təcrübəsi ilə tutuşdurularaq yenidən işlənməsi, mükəmmələşdirilməsi məqsədəuyğun olardı.

1999-cu ildə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın qəbul edilməsi ilə ölkəmizin təhsil sistemində islahata başlanılmasına start verildi. Təhsil islahat proqramı çərçivəsində Respublikamızın təhsil müəssisələrində təhsilalanların qiymətləndirilməsinin tənzimlənməsi üçün "Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə konsepsiyası" işlənib hazırlandı və 2009-cu ildə qəbul olundu. [1] 2008-2009-cu tədris ilindən başlayaraq yeni təhsil standartı və proqramları (kurikulumları) tətbiq olunan siniflərdə təhsilalanların fəaliyyətinin sözlə (dörd səviyyəli rubriklər əsasında), nailiyyət səviyyəsinin isə beş ballıq şkala əsasında qiymətləndirilməsinin həyata keçirilməsini tənzimləyən "Ümumi təhsil məktəblərində və ilk-peşə ixtisas təhsili müəssisələrində məktəbdaxili qiymətləndirmənin aparılması Qaydaları" [9], daha sonra "Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti Təlimat" [2] hazırlandı. Hazırda ümumtəhsil məktəblərində təhsilalanların qiymətləndirilməsi "müvəqqəti Təlimat" [2] əsasında həyata keçirilir. Bu gün beş ballıq qiymətləndirmə şkalasından istifadə edən müəllimlər təhsilalanın fəaliyyətini 4, nailiyyətini isə 5 səviyyə üzrə qiymətləndirirlər.

Çox haqlı olaraq yeni qəbul edilmiş "Təlimat"da 1 (çox pis) qiymətindən imtina edilmiş və bu qiymət onunla eynimənalı məzmun daşıyan, yekun olaraq "qeyri-kafi" bildirən 2 (pis) qiyməti ilə birləşdirilmişdir. Təhsilalanın tamamilə fəaliyyətsizliyini bildirən qiymətin – 0 (sıfır)ın qəbul edilməsi və bu baxımdan hazırda istifadə olunan 5 ballıq qiymətləndirmə şkalasının 0, 2, 3, 4, 5 kimi verilməsi daha düzgün hesab edirik. Eyni zamanda, iki eynimənalı "0" və "2" qeyri-kafi qiymətindən imtina edilməsi, onların birləşdirilməsi və ukraynalılar kimi bir "qeyri-kafi" qiymətdən istifadə etməklə, 4 ballıq şkala üzrə (2, 3, 4, 5) qiymətləndirmədən də istifadə qəbul oluna bilər.

Araşdırmalar göstərir ki, dünyanın əksər ölkələrində əsasən 10, 100 ballıq qiymətləndirmə şkalasından istifadə olunur və təhsilalanların fəaliyyətinin izlənilmə və nailiyyət səviyyəsi demək olar ki, eyni sözlərlə və müvafiq şkala üzrə qiymətləndirirlər. Lakin təhsilalanın yekun sənədində onun qiymətləri beş (və ya 100) ballıq şkala ilə uyğunlaşdırılmış hərf və ədədlərlə verilir.

Beləliklə, təhsil tarixində ümumi təhsil pilləsində təhsilalanın fəaliyyətinin izlənilməsi, bacarıq və nailiyyət səviyyəsinin qiymətləndirilməsi üçün iki baxış formalaşdığını görürük:

(1) qiymətləndirmənin rəqəmlə (balla, şkala əsasında) aparılması;

(2) qiymətləndirmənin sözlə (təsviretmə şəklində) aparılması.

Qiymətləndirmənin rəqəmlə (balla, şkala əsasında) aparılmasının tərəfdarları şkaladan istifadənin müəllimə təhsilalanın cari biliyini asanlıqla və sürətlə qiymətləndirməsinə, həmçinin bu formanın valideynlərə öz uşaqlarının müvəffəqiyyəti barədə çox sadə və rahat şəkildə məlumat almalarına, onların inkişafını izləmələrinə imkan verdiyini qeyd edirlər. Lakin valideynlər arasında belə qiymətləndirmədən – müəllimin rolunun yüksək olmasından narahat olanları da az deyil.

Qiymətləndirmənin sözlə (təsviretmə şəklində) aparılmasının tərəfdarları isə balla qiymətləndirmənin daha çox müəllimin subyektiv mülahizələrinə əsaslanması səbəbindən onun əksər hallarda təhsilalanın cari biliyini, bacarıq səviyyəsini deyil, dərsdə özünü necə aparmasını qiymətləndirdiyini və bunun da uşaqların sağlamlığına və inkişafına ciddi zərər verdiyini qeyd edirlər. Onlar təhsilalanın hər bir rüb, yarımil və ya il üzrə sözlə "məqbul – qeyri-məqbul" qiymətləndirmə sisteminə keçidi təklif edirlər.

Qeyd edək ki, qiymətləndirmənin rəqəmlə (bal əsasında) aparılması rəhbərliyə müəllim və şagirdlərin, müəllimə isə şagirdlərin fəaliyyətini təhlil etməyə, valideynə övladının səviyyəsi barədə müəyyən mənada dəqiq məlumat almaq imkanı verdiyi üçün ondan istifadə bu yönümdən daha çox diqqəti cəlb edir. Lakin qiymətləndirmənin sözlə "məqbul – qeyri-məqbul" kimi aparılması təhsilalanları obyektiv fərqləndirməyə imkan vermir. Qiymətləndirmənin sözlə təsviretmə şəklində və ən azı 3-5 səviyyədə [10, 38] aparılması daha məqsədəuyğundur. Həmçinin, rəqəmlə qiymətləndirmədən və bu zaman ədədi orta qiymətdən istifadə olunması da yanlış nəticəyə gəlməyə (keyfiyyətin kəmiyyətlə ifadə edilməsinə) səbəb olur.

Bu baxışlardan fərqli olaraq ümumi təhsil məktəblərində qiymətləndirmənin məqsədinin müəyyən edilməsini, nəyə xidmət etdiyini aydınlaşdırmağı və *onun* həm *sözlə,* həm də *rəqəmlə,* o cümlədən, təhsilalanın gündəlik (cari, hər dərsdə) fəaliyyətinin izlənilməsinin, biliyinin bacarığa (səriştəyə) çevrilməsi səviyyəsinin qiymətləndirilməsinin sözlə, tədris vahidi (bölmə, yarımil və s.) üzrə nailiyyət səviyyəsinin qiymətləndirilməsinin isə rəqəmlə aparılmasını daha düzgün hesab edirik. Qiymətləndirmənin təklif olunan formatda (sözlə təsvir və rəqəmlə ifadə edilmə) aparılması müəllimin təhsilalana yanaşmalarında subyektiv mülahizələrinin qarşısının alınmasına xidmət edir.

Biz dünya təcrübəsini, Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiya olunmasını, azərbaycanlı təhsilalanların təhsillərini dünyanın inkişaf etmiş ölkələrində, Avropanın və ABŞ-ın nüfuzlu ümumi orta təhsil müəssisələrində, kollec və ali məktəblərində davam etdirmələrinin nəzərə alınmasını, ölkəmizdə təhsilalanın yekun qiymətləndirilməsinin beynəlxalq səviyyədə qəbul olunan qiymətləndirmə sisteminə uyğunlaşdırılmasını, aşağıda verilən 10 (100) ballıq qiymətləndirmə sisteminin tətbiq olunmasını (və sonda təhsil sənədində A (əla), B (yaxşı), C (qənaətbəxş), D (kifayət), E (qeyri-kafi) hərfləri ilə ifadə edilən 5 ballıq şkala ilə verilməsini) təklif edirik:

| Şkala | Qiymətin balla təsviri | | Qiymətin hərflə təsviri | Qiymətin sözlə ifadəsi | Qiymətin 5 ballıq şkala ilə ifadəsi | Qiymətin faizlə ifadəsi |
|---|---|---|---|---|---|---|
| | 10 ballıq | 100 ballıq | | | | |
| 10 | 5,0 | (90-100] | $A^+$ | çox əla | 5 | (90%; 100%] |
| 9 | 4,5 | (80-90] | A | əla | | (80%; 90%] |
| 8 | 4,0 | (70-80] | $B^+$ | çox yaxşı | 4 | (70%; 80%] |
| 7 | 3,5 | (60-70] | B | yaxşı | | (60%; 70%) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 6 | 3,0 | (50-60] | C$^{+}$ | demək olar ki, yaxşı | 3 | (50%; 60%] |
| 5 | 2,5 | (40-50] | C | qənaətbəxş | | (40%; 50%) |
| 4 | 2,0 | (30-40] | D$^{+}$ | demək olar ki, qənaətbəxş | 2 | (30%; 40%] |
| 3 | 1,5 | (20-30] | D | kifayət | | (20%; 30%] |
| 2 | 1,0 | (0-20] | E$^{+}$ | minimum | 1 | (0%; 20%] |
| 1 | 0 | 0 | E | ən aşağı | | 0% |

Təklif olunan yeni qiymətləndirmə sistemində (şkalasında) 10 və 100 ballıq şkalalarla 5 ballıq şkala arasında əlaqə də təsvir edilib. Bu şkala ilə təhsilalanın nailiyyət səviyyəsinin daha dəqiq qiymətləndirilməsini həyata keçirmək mümkündür. Bu qiymətləndirmə sistemi tətbiq edildiyi təqdirdə təhsilalanın "keçid balı"ndan istifadə olunmasını və keçid balının 4-dən (40%-dən) böyük olmasını təklif hesab edirik. Hər bir fənn üzrə keçid balını toplayan təhsilalan növbəti sinfə keçirilir və ya təhsil səviyyəsini bitirmək üçün yekun imtahanlara buraxılırlar. Keçid balından aşağı bal toplayanlar isə yay tədris tapşırığı alır və ya təkrar sinifdə saxlanılırlar.

Tam orta təhsil səviyyəsində təmayülləşmənin tətbiqi ilə əlaqədar təmayül istiqamətlərini bitirən məzunların təhsilini növbəti təhsil pilləsində davam etdirməsi üçün dünya təcrübəsini nəzərə almağı, "təhsilalanın keyfiyyət indeksi"ndən istifadə edilməsini məqsədəuyğun hesab edirik. [11, s. 33]

**Məqalənin aktuallığı.** Təhsilalanın nailiyyət səviyyəsinin daha dəqiq qiymətləndirilməsi üçün qiymətləndirmə sistemlərinin araşdırılmasına və yeni 10 (100) ballıq qiymətləndirmə sisteminin (şkalasının) yaradılmasına həsr olunmuşdur.

**Məqalənin elmi yeniliyi.** Yeni 10 (100) ballıq qiymətləndirmə sisteminin (şkalasının) modeli təklif olunur. Bu modeldə 5 ballıq qiymətləndirmə sistemi ilə 10 (100) ballıq qiymətləndirmə sistemi arasında əlaqə verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Yeni qiymətləndirmə sisteminin tətbiq edilməsi ilə təhsilalanların fəaliyyətinin izlənilməsi, bacarıq və nailiyyət səviyyəsinin daha obyektiv qiymətləndirilməsi təmin olunacaqdır. Müəllim təhsilalanın nailiyyət səviyyəsini düzgün qiymətləndirəcək, təhsilalan özünün, valideyn isə övladının üstün və zəif (inkişaf etdirilməsinə diqqət ediləcək) tərəfləri barədə daha dolğun məlumat əldə edəcəkdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə konsepsiyası. Bakı, 2009.
2. Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti Təlimat. "Azərbaycan müəllimi" qəz., 2013.
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
4. Mahmudov N.M. İbtidai siniflərdə məsələ həllinin öyrədilməsi metodikası. Bakı, 2010.
5. Левин Л.Л., Малышева М.П. О повышении разрешающей способности текущих школьных оценок. (llevin.ru).
6. Система оценивания. (enic.in.ua/index.php/ru/sistema-obrazovania/srednee)
7. Система оценивания знаний. (vestnik.edu.ru)
8. Şagirdlərin təlim müvəffəqiyyətlərinin 9 bal sistemi ilə qiymətləndirilməsi normaları.

Bakı, 2002.
9. Ümumi təhsil məktəblərində və ilk-peşə ixtisas təhsili müəssisələrində məktəbdaxili qiymətləndirmənin aparılması Qaydaları. Bakı, 2011.
10. Mahmudov N.M. Ümumi təhsil pilləsində qiymətləndirmə. Bakı, 2012.
11. Mahmudov N/M/ Tam orta təhsil səviyyəsində təmayülləşmənin tətbiqi barədə mülahizələr //Təhsil, № 04

**Н. Махмудов**

## О новой системе внутриклассного оценивания уровня достижений учащегося в общеобразовательной школе

## Резюме

В статье рассматриваются системы внутриклассного оценивания развитых стран мира и предлагается новая 10 (100)-бальная система (шкалы) оценивания.

**N. Mahmudov**

## About the new system of class-based assessment of students' achievement level in secondary schools

## Summary

The developed countries of the world systems of class-based assessment are observed, investigated and new 10 (100)-point assessment system (scale) is proposed in the article.

**Redaksiyaya daxil olub:** 15.01.2018